**ALISH AGHAMIRZAYEV**

**Vice-Rector on Social Affairs,**
**Student Affairs and Public Relations**

Baku State University

Associate Professor, Doctor of Philosophy,

E-mail: alish.aghamirzayev@gmail.com

ORCID: 0000-0001-5658-9211

**ALAMDAR GAMBAR OGHLU BAYRAMOV**

Baku State University,

Dean of the Faculty of Library and Information Science,

Associate Professor, Doctor of Philosophy,

ORCID: 0000-0002-6599-5788

alemdarbayramov@bsu.edu.az

# PROFESSOR ABUZƏR XƏLƏFOV ELMİ MƏKTƏBİNİN DAVAMÇILARI

**(Kitabxanaşünas alim P.Kaziminin 65-illik yubileyi münasibəti ilə)**

**Özet**

XX əsrin 20-30-cu illərində Əliəjdər Seyidzadə Azərbaycanda milli kitabxanaşünaslıq elmi fikrinin ilk addımlarını atmış, bu sahədə ilk məqalələr dərc etdirmişdir. 1947-ci ildən Bakı Dövlət Universitetində ali kitabxanaçılıq təhsilinə başlanılmış, 1962-ci ildə universitetdə Kitabxanaçılıq fakültəsi yaradılmışdır. Fakültənin ilk dekanı professor Abuzər Xələfov bu sahədə fundamental elmi əsərlər yazdı, Azərbaycanda kitabxanaşünaslıq elmi məktəbini yaratdı və formalaşdırdı. Təqdim olunan məqalə Abuzər Xələfov elmi məktəbinin nüfuzlu nümayəndələrindən, tarix üzrə fəlsəfə doktoru, dosent Pərviz Kaziminin elmi-pedaqoji fəaliyyətini əks etdirir. Məqalədə alimin çoxcəhətli elmi fəaliyyəti, o cümlədən, monoqrafiyaları, elmi məqalələri və hazırladığı çoxsaylı

tədris ədəbiyyatı, eləcə də informasiya mühəndisliyi elmi nəzəriyyəsi istiqamətində irəli sürdüyü fikirlər təhlil edilir.

**Açar sözlər:** *Professor A.Xələfov, dosent P.Kazimi, elmi məktəb,informasiya mühəndisliyi, Azərbaycan kitabxanaları.*

## THE SCIENTIFIC SCHOOL OF PROFESSOR ABUZAR KHALAFOV CONTINUES

## (on the 65th anniversary of the scientist-librarian Parviz Kazimi)

**Abstract.**

In the 20-30s of the 20th century, Aliadar Seyidzadeh took the first steps of the scientific idea of national librarianship in Azerbaijan and published the first articles in this field. In 1947, higher library education was started at Baku State University, and in 1962, the Faculty of Library Science was created at the university. The first dean of the faculty, Professor Abuzar Khalafov, wrote fundamental scientific works in this area, created and formed a scientific school of librarianship in Azerbaijan.

The presented article reflects the scientific and pedagogical activities of Doctor of Historical Sciences Parviz Kazimi, one of the influential representatives of the scientific school of Abuzar Khalafov. The article analyzes the multifaceted scientific activity of the scientist, including the monographs he prepared, scientific articles and numerous educational literature, as well as the ideas put forward by him in the direction of the scientific theory of information engineering.

**Key words:** *Professor A. Khalafov, associate professor P. Kazimi, scientific school, information engineering, Azerbaijan libraries.*

### Giriş

1985-ci ildən BDU-da müəllimlik fəaliyyətinə başlayan gənc tədqiqatçı Pərviz Kazimi eyni zamanda Bakı şəhərində, Suraxanı rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin direktoru idi. Bu illərdən başlayaraq gənc tədqiqatçı Rusiyanın qabaqcıl ali məktəbləri, sahənin nüfuzlu alimləri ilə əlaqələr yaradır, sahə ədəbiyyatı ilə yaxından tanış olurdu. Bütün bunların nəticəsi kimi P.Kazimi Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-informasiya fakültəsinin Rusiya universitetləri və rus

kitabxanaşünas alimləri ilə əməkdaşlığına öz töhfələrini verdi. O, tanınmış alimlər Y.N.Stalyarovun, Y.L.Şreyberqin, V.K.Kluyevin, İ.S.Pilkonun əsərlərini Azərbaycan dilinə tərcümə edir, ilkin mənbələri tələbələrə tövsiyə edirdi.

1990-cı illər postsovet respublikalarında mürəkkəb, ziddiyyətli illər hesab edilir. Kitabxanalardakı nomenklatur ədəbiyyat dünya ədəbiyyatı ilə əvəz edilir, senzura aradan götürüldükcə oxucuların ixtiyarına demək olar ki, hər gün yeni nümunələr təqdim olunurdu. Bu dövrdə P.Kazimi elmi-nəzəri biliklərini kitabçılıq təcrübəsinə tətbiq etmək, azad bazar münasibətlərində özünü sınamaq və yüksək tirajlı kitab nəşrini həyata keçirmək sahəsində fəaliyyətə başladı. Onun nəşr etdiridiyi on minlərlə nüsxə kitab rusdilli məkanda yayılır və kitabçılıq işində elmi yanaşmanın uğurunu ifadə edirdi. 2000-ci illərdə P.Kazimi elmi tərcümələrlə məşğul olur. Samuel Kramerin "Tarix şumerdən başlanır"[1] kitabını və akademik Maksakovskinin "Dünyanın coğrafi mənzərəsi"[2] adlı kitabını azərbaycan dilinə tərcümə edərək çap etdirir. Eyni zamanda "Azərbaycan-Rus və Rus-Azərbaycan universal lüğəti"[3] üzərində işləyir. Lüğətin ərsəyə gəlməsinə xeyli zaman sərf olunur, nəhayət 2002, 2004 və 2006-cı illərdə kitabın üç müxtəlif nəşri Bakı şəhərində işıq üzü görür. 2008-2009-cu illərdə "Azərbaycan-Rus və Rus-Azərbaycan universal lüğəti" Moskva şəhərinin "Tolmaç"[4] nəşriyyatında iki dəfə çap olunur.

P.Kazimi 2008-ci ildə professor A.Xələfovun elmi rəhbərliyi ilə "Səfəvilər dövründə Azərbaycanda kitabxana işi"[5] mövzusunda tarix üzrə fəlsəfə doktorluğu dissertasiyasını uğurla müdafiə edir. Elmi rəhbərinin tapşırıqlarını həmişə yüksək səviyyədə yerinə yetirən P.Kazimi tədqiqatlarını davam etdirir və yenə də prof. A.Xələfovun məsləhəti ilə "Türk dövlətlərinin kitab və kitabxana mədəniyyəti" mövzusunda doktorluq dissertasiyası üzərində çalışmağa başlayır. Həmin dövrdə fakültə dekanı, professor Xəlil İsmayılovun tövsiyəsi ilə "Türk xalqlarının kitab və kitabxana mədəniyyəti" adlı fənnin bakalavr pilləsində tədrisinə başlanıldı və fənnin tədrisi bu sahənin mütəxəssis kimi tarix üzrə fəlsəfə doktoru, dosent P.Kazimiyə tapşırıldı.

Dosent P.Kazimi 2012-ci ildə "Türk xalqlarının kitab və kitabxana mədəniyyəti"[6] dərsliyini hazırlayıb çap etdirdi, 2014-cü ildə "Türk xalqlarının kitab və kitabxana mədəniyyətinin

---

[1] Kramer, S. (2009). Tarix şumerdən başlanır. Bakı, Mütərcim.
[2] Maksakovski V.P. Dünyanın cografi mənzərəsi. Bakı, 2010, 490 s.
[3] Kazymi, P. Nasretdinov. R.(2010). *Universalnyj russko-azerbajdganskij slovar*.
[4] Kazymi, P. Nasretdinov. R.(2010). *Universalnyj russko-azerbajdganskij slovar*.
[5] Parviz, K. (2008). Library work in Azerbaijan during the Safavid period. *Baku: Baku University Publishing House*.
[6] Kazimi, P. F. (2012). Türk xalqlarının kitab və kitabxana mədəniyyəti. Bakı.

mənbəşunaslığı”[7] monaqrafiyasını çap etdirdi. Sonra professor A.Xələfovun məsləhəti ilə “Türk dünyası milli kitabxanaları”[8] layihəsi gündəmə gəldi. Kitabın üzərində uzun müddət iş aparıldı. Professor A.Xələfovla dosent P.Kazimi altı türk dövlətinin milli kitabxanalarının fəaliyyətini öyrənməyə, təhlil etməyə başladılar. Monoqrafiyanın ərsəyə gəlməsi üçün P.Kazimi Türkiyə Cümhuriyyətinin, Qazaxıstanın və Rusiya Federasiyasının müxtəlif şəhərlərinə ezamiyyətə getdi, kitabxanalarda günlərlə işləməli oldu.

Dos.P.Kazimi informasiya mühəndisliyi konsepsiyası ilə məşğul olmasını belə izah edir: “1990-cı illərin sonları idi, professor Abuzər Xələfovla “Kitabxanaşünaslığa giriş” fənninin tədris proqramı ilə əlaqədar geniş müzakirələr aparırdıq. Müzakirə zamanı professor A.Xələfov İ.Yüzvişinin “İnformasiyalogiya” kitabını mənə verib dedi ki, bu çox qiymətli kitabdır, oxu – harada səhv etdiyini anlayacaqsan. Beləliklə, mənim informasiya mühəndisliyi[9] konsepsiyası ilə bağlı fikirlərim meydana gəldi”.

2011-ci ildə P.Kaziminin “İnformasiya mühəndisliyi kitabxana-informasiya fəaliyyətində” adlı monoqrafiyası və ardınca bu istiqamətdə silsilə məqalələri çap olundu.[10] Məqalələrdə elmi informasiyanın dövriyəsi[11], informasiyaya əlçatarlıq məsələləri[12], yeni texnologiyaların tətbiqi ilə yeni informasiya mühitinin formalaşması problemi və informasiyanın qiymətləndirilməsi[13] üsulları kimi mühüm məsələlər öz əksini tapırdı. Məhz bu tədqiqatların nəticəsində alim Amerika Mühəndislər Assosiasiyasına üzv olunması üçün dəvət olundu (IEEE).

2020-2023-cü illərdə dosent P.Kaziminin tədqiqatlarında yeni istiqamətlər müəyyənləşir. Tədqiqatçı kitabxana-informasiya fəaliyyətində demokratiklik[14][15], informasiya xidmətində senzura

---

[7] KAZIMİ, P. (2014). Türk Halklarının Kitap ve Kitaphana Medeniyyetinin Menbeşünaslığı (Managrafiya). *Mütercim, Bakı*.
[8] Xalafov, A. A. (2016). Kazimi PF Türk dünyasi milli kitabxanalari.
[9] Казыми, П. Ф. (2011). Информационная инженерия. *Баку: Изд-во Бакинского гос. ун-та*.
[10] Kazii, P. (2014). INFORMATION ENGINEERING: WHAT'S THIS?. *International Journal of Academic Research*, *6*(3). Kazimi, P. F. (2017). İnformasiya mehəndisliyi. Bakı. Kazimi, P. F. (2011). Information engineering in library activity. *B. BSU*.
[11] KAZIMİ, P. F. (2017). Sosyal ve Kültürel Ortamın Oluşmasında Kitap ve Kütüphanelerin Rolü. *Türk Kütüphaneciliği*, *31*(2), 245-250.
[12] Kazimi, P. F. O., Oqlu, I. I. A., & Qizi, Y. G. Y. (2022). Philosophical view on information theory (The path from the divine to the digital world). *Technium Soc. Sci. J.*, *32*, 724.
[13] Kazimi, P., Abdullayeva, A., & Ismayilov, N. (2020). Scientometric analysis of document flow in library science of azerbaijan (2014-2018). *Norwegian journal of development of the international science*, (45-2), 66-70.
[14] Kazimi, P. F. O. (2021). Democratic countries and ways of influencing the nature of information. *Technium Soc. Sci. J.*, *22*, 847.
[15] Kazymi, P. F. (2011). About democracy of library work. Kursk. *Journal of scientific publications*, 102-105.

və məhdudiyyətlər[16], oxucu-istehlakçı məmnuniyyəti[17], kitabxana-informasiya fəaliyyətinin dinamik inkişafı[18], informasiyanın mötəbərliyi[19], informasiya xidmətində maraqlar konflikti[20] kimi mühüm mövzulara müraciət edir. "Amerika Mühəndislər Assosiasiyası" Elektrik və Elektronika Mühəndisləri İnstitutunun (IEEE) hər il keçirdiyi nüfuzlu beynəlxalq elmi konfranslara dəvət olunan dosent P.Kazimi tanınmış alimlərlə birlikdə 2020-ci ildə "Kitabxanaların layihə və innovasiya fəaliyyəti"[21], həmin ildə "Mədəni İrsin Biobiblioqrafik sənədli məlumat bazası"[22], 2021-ci ildə "Ali təhsil sahəsində layihə fəaliyyətlərinin məlumat və terminoloji anlayışları"[23], "Qlobal İnformasiya Şəbəkəsi və Maraqların Toqquşması (Tərəflər, Maraqlar və Münaqişələr)"[24], 2022-ci ildə "İntellektual Sistem Ailə Həkimi: Layihə yanaşması"[25], 2023-cü ildə "Gənclərin qlobal İnformasiya Məkanında sərf etdikləri zaman (Mütaliyə və ya İnformasiya Ehtiyacının Təminatı Problemləri)"[26] mövzularında konfranslarda çıxışlar edir, elmi məqalələri Scopus məlumat bazasında indeksləşən jurnallarda çap olunur.

---

[16] Kazimi, P., & Aliyeva, A. (2019). Evaluation criteria of censorship and limitation in library and information activity. *Historical sciences*, *17*, 65-72.

[17] Kazimi, P. F., & Gurbanov, A. I. (2022). Today's factors of user satisfaction with library services and their quality. *Scientific and Technical Libraries*, (2), 109-122. Oqlu, K. P. F., & Qurbanov, A. (2021). Factors influencing reader satisfaction and quality of service in modern libraries. *South Asian Journal of Social Studies and Economics*, *11*(3), 15-20.

[18] Oqlu, K. (2021). Dynamic development of information technologies, organization of library services using digital space and through social networks. Asian Journal of Education and Social Studies, 16(4), 27-32.

[19] The concept of reliable information on the global network in times of crisis. *PFO Kazimi, NAG Guliyeva - Technium Soc. Sci. J., 2022.*

[20] Kazimi, P. F. (2021). Conflict of relevance and reliability of information and the global network. Trends in Humanities and Social Sciences, 1(1), 1-2.

[21] Project and innovation activity of libraries. Bilovus, H., Mudrokha, V., Pavliuk, K., Kazimi, P. CEUR Workshop ProceedingsЭта ссылка отключена., 2020, 2565, с. 58–70.

[22] Biobibliographic Data Repository of Documentary Cultural Heritage. Kunanets, N., Filippova, N., Dobrovolska, V., Kazimi, P. International Scientific and Technical Conference on Computer Sciences and Information Technologies, 2020, 2, с. 221–225, 9321944

[23] Information and terminological concepts of project actions in higher education domain. Krokhmalnyi, R., Krokhmalna, H., Krokhmalnyi, D., Kazymi, P. CEUR Workshop ProceedingsЭта ссылка отключена., 2021, 2851, с. 381–390.

[24] Global Information Network and Conflicts of Interest (Parties, Interests and Conflicts) Oqlu Kazimi, P.F. International Scientific and Technical Conference on Computer Sciences and Information Technologies, 2021, 2, с. 453–456

[25] Intelligent System Family Doctor: Project Approach. Helyi, A., Kunanets, N., Rzheuskyi, A., Sihaiov, A., Kazymi, P. CEUR Workshop ProceedingsЭта ссылка отключена., 2022, 3295, с 196–205.

[26] time Spent in Youth s global Information Space (Problems of Satisfaction of Reading or Information Need) Kazimi, P.F.O., Guliyeva, N.A.G. Procedia Computer ScienceЭта ссылка отключена., 2023, 219, с. 720–723.

Dosent P.Kazimi "Türk dövlətlərində kitab və kitabxana mədəniyyəti" mövzusunda doktorluq dissertasiyasını bitirmiş və müdafiəyə təqdim etmişdir. Tədqiqatçı dünya türkləri, onların kitab, kitabxana, mütaliə mədəniyyəti və informasiya təminatı mövzularında 60-dan artıq elmi məqalə çap etdirib.

Dərslik və dərs vəsaitləri üzərində intensiv işləyən dos.P.Kazimi 2012-ci ildə dos.A.Qurbanov və dos.M.Məmmədovla birlikdə "Kitabxana-informasiya fəaliyyətinin menecmenti və marketinqi"[27] adlı tədris vəsaitini magistratura pilləsi üçün çap etdirdi. Həmin ildə dosent Pərviz Kazimi dos.A.Qurbanov və fəlsəfə doktoru N.İsmayılova ilə birlikdə "Kitabxana-informasiya fəaliyyətinin iqtisadiyyatı" adlı dərs vəsaitini hazırlayıb çap etdirdi.[28]

2019-cu ildə "Kitabxana-informasiya sistemləri"[29], 2020-ci ildə dosent A.Qurbanov və fəlsəfə doktoru O.Quliyevlə birlikdə "Kitabxanalarda informasiya texnologiyaları"[30] adlı dərs vəsaitini hazırladı və Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanası ilə əməkdaşlıq əsasında çap etdirdi.

"Türk dünyası milli kitabxanaları"[31] monoqrafiyası 2016-cı ildə çap edildi. Bu kitab professor Xələfovun dos. Pərviz Kazimi ilə birgə hazırladığı və böyük enerji sərf edərək yazıb miras qoyduğu sonuncu kitab oldu. 2020-ci ildə Azərbaycanın Əməkdar Elm xadimi, professor, "Şərəf" və "Şöhrət" ordenli Abuzər Xələfov dünyasını dəyişdi. Alim öz xalqına kitablarını və bu illər ərzində yetişdirdiyi tələbələri ilə elmi məktəbini miras qoydu. Dos. Pərviz Kazimi həmin elmi məktəbi bu gün uğurla davam etdirənlərin cərgəsində ön sırada dayananlardandır.

## NƏTİCƏ

Azərbaycanda professor A.Xələfovun milli kitabxanaşünaslıq məktəbi bu gün də inkişaf etməkdədir. 2022-ci ilin yekunlarına görə Bakı Dövlət Universitetində humanitar və ictimai elmlər üzrə "İlin alimi" adına bu məktəbin təmsilçisi dosent Nadir İsmayılov, 2023-cü ildə dosent Pərviz Kazimi layiq görüldü. Bu nəticələr İnformasiya-sənəd menecmenti fakultəsinin multidistiplinar

---

[27]Qurbanov A., Kazimi P.,Məmmədov M. Kitabxana-informasiya fəaliyyətinin marketinq və menecmenti. Bakı, 2012, http://web2.anl.az:81/read/page.php?bibid=vtls000322679

[28] Qurbanov A.,Kazimi P.,İsmayılova N. Kitabxana-informasiya fəaliyyətinin iqtisadiyyatı. Bakı, 2012, http://web2.anl.az:81/read/page.php?bibid=vtls000285274

[29] Kazimi, P., Gurbanov, A., & Guliyev, O. (2019). Library information systems. *Baku, RS polygraph*.

[30] Qurbanov A. Kazimi P. Quliyev O. Kitabxanalarda informasiya texnologiyaları, Bakı,Mütərcim,2020.

[31] Xalafov, A. A. (2016). Kazimi PF Türk dünyasi milli kitabxanalari.

universitetdə əldə etdiyi böyük uğur hesab edilir. Fakültənin əməkdaşları bu uğurları fakültənin yaradıcısı və bütün pedaqoji heyətin müəllimi olmuş görkəmli alimin xatirəsinə ithaf edirlər.

2022-ci ildə professor Abuzər Xələfovun 90 illik yubileyi alimin iştirakı olmadan keçirildi. Alimin yubileyi münasibətilə Moskvanın “Elmi-texniki kitabxanalar” adlı nüfuzlu jurnalında dosent Ə.Agamirzəyevlə dosent P.Kaziminin məqaləsi dərc olundu.[32] Ümumiyyətlə, prof. A.Xələfovun elmi fəaliyyəti ilə əlaqədar çox sayda elmi məqalələr[33] çap olundu, elmi konfranslar[34] keçirildi. Dosent P.Kazimi müəllimi və elmi rəhbəri olmuş alimin geniş fəaliyyəti ilə əlaqədar Azərbaycan, rus, ukrayna, türk və ingilis dillərində müxtəlif elmi jurnallarda məqalələr çap etdirdi.

Yubiley tədbirləri Respublikanın bütün iri kitabxanalarında keçirildi. Bakı Dövlət Universitetində elmi konfrans təşkil olundu, alimin elmi məktəbinin davamçıları bu konfransın əsas iştirakçıları və məruzəçiləri idi.

Bu gün dosent P.Kazimi Bakı Dövlət Universitetinin İnformasiya-sənəd menecmenti fakültəsinin aparıcı dosentidir və akademik reytinqinə görə H indeksi 20, məqalələrinə olunmuş elmi isnadlarının sayı 400-dən artıq olmaqla yüksək göstəricilərə malikdir. Fakültə kollektivinin və tələbələrin sevimlisi, professor Abuzər Xələfov irsinin fəal təbliğatçısıdır. Alimin 15 adda dərslik, dərs vəsaiti və monoqrafiyası çap olunmuş, 150-dən artıq elmi məqaləsi nüfuzlu elmi jurnallarda dərc olunmuşdur.

**Ədəbiyyat siyahısı:**


- Qurbanov A., Kazimi P.,Məmmədov M. Kitabxana-informasiya fəaliyyətinin marketinq və menecmenti. Bakı, 2012, http://web2.anl.az:81/read/page.php?bibid=vtls000322679
- Qurbanov A.,Kazimi P.,İsmayılova N. Kitabxana-informasiya fəaliyyətinin iqtisadiyyatı. Bakı, 2012, http://web2.anl.az:81/read/page.php?bibid=vtls000285274
- Kazimi, P., Gurbanov, A., & Guliyev, O. (2019). Library information systems. *Baku, RS polygraph*.


---

[32] Агамирзаев, А. Ч., & Казими, П. Ф. (2023). Последний из «могикан» советского библиотековедения.(К 90-летию памяти профессора АА Халафова). *Научные и технические библиотеки*, (12), 124-134.
[33] Курбанов, А. И., & Кязыми, П. Ф. (2012). Азербайджанское библиотековедение как научная школа проф. А. Халафова. *Украина, Библиотечный форум. Киев*, (3), 24-28. Qurbanov, A., & Kazımi, P. (2012). Azerbaycan kitapşünaslığı Prof. AA Xalafovun bilimsel okulu gibi.
[34] KAZİMİ, P., & Bayramov, A. (2022). Professor AA Xələfovun Azərbaycanda Kitabxanaşünasliğin İnkişafinda Rolu (Professor AA Xələfovun 90 illik Yubileyinə). *Akademik Tarih ve Düşünce Dergisi*, *9*(3), 575-589.

- Qurbanov A. Kazimi P. Quliyev O. Kitabxanalarda informasiya texnologiyaları, Bakı,Mütərcim,2020.
- Агамирзаев, А. Ч., & Казими, П. Ф. (2023). Последний из «могикан» советского библиотековедения.(К 90-летию памяти профессора АА Халафова). *Научные и технические библиотеки*, (12), 124-134.
- Курбанов, А. И., & Кязыми, П. Ф. (2012). Азербайджанское библиотековедение как научная школа проф. А. Халафова. *Украина, Библиотечный форум. Киев*, (3), 24-28. Qurbanov, A., & Kazımi, P. (2012). Azerbaycan kitapşünaslığı Prof. AA Xalafovun bilimsel okulu gibi.
- KAZİMİ, P., & Bayramov, A. (2022). Professor AA Xələfovun Azərbaycanda Kitabxanaşünasliğin İnkişafinda Rolu (Professor AA Xələfovun 90 illik Yubileyinə). *Akademik Tarih ve Düşünce Dergisi*, *9*(3), 575-589.
- Казыми, П. Ф. (2011). Информационная инженерия. *Баку: Изд-во Бакинского гос. ун-та*.
- Kazii, P. (2014). INFORMATION ENGINEERING: WHAT'S THIS?. *International Journal of Academic Research*, *6*(3). Kazimi, P. F. (2017). İnformasiya mehəndisliyi. Bakı. Kazimi, P. F. (2011). Information engineering in library activity. *B. BSU.*
- Kazimi, P. F. O. (2021). Democratic countries and ways of influencing the nature of information. *Technium Soc. Sci. J.*, *22*, 847.
- Kazimi, P., & Aliyeva, A. (2019). Evaluation criteria of censorship and limitation in library and information activity. *Historical sciences*, *17*, 65-72.
- Oqlu, K. (2021). Dynamic development of information technologies, organization of library services using digital space and through social networks. Asian Journal of Education and Social Studies, 16(4), 27-32.
- The concept of reliable information on the global network in times of crisis. *PFO Kazimi, NAG Guliyeva - Technium Soc. Sci. J., 2022.*
- Kazimi, P. F. (2021). Conflict of relevance and reliability of information and the global network. Trends in Humanities and Social Sciences, 1(1), 1-2.

- Project and innovation activity of libraries. Bilovus, H., Mudrokha, V., Pavliuk, K., Kazimi, P. CEUR Workshop ProceedingsЭта ссылка отключена., 2020, 2565, с. 58–70.
- Biobibliographic Data Repository of Documentary Cultural Heritage. Kunanets, N., Filippova, N., Dobrovolska, V., Kazimi, P. International Scientific and Technical Conference on Computer Sciences and Information Technologies, 2020, 2, с. 221–225, 9321944
- Information and terminological concepts of project actions in higher education domain. Krokhmalnyi, R., Krokhmalna, H., Krokhmalnyi, D., Kazymi, P. CEUR Workshop ProceedingsЭта ссылка отключена., 2021, 2851, с. 381–390.
- Global Information Network and Conflicts of Interest (Parties, Interests and Conflicts) Oqlu Kazimi, P.F. International Scientific and Technical Conference on Computer Sciences and Information Technologies, 2021, 2, с. 453–456
- Intelligent System Family Doctor: Project Approach. Helyi, A., Kunanets, N., Rzheuskyi, A., Sihaiov, A., Kazymi, P. CEUR Workshop ProceedingsЭта ссылка отключена., 2022, 3295, с. 196–205.
- Kazimi, P.F.O., Guliyeva, N.A.G. time Spent in Youth s global Information Space (Problems of Satisfaction of Reading or Information Need) Procedia Computer ScienceЭта ссылка отключена., 2023, 219, с. 720–723.
- Kramer S. Tarix Şumerdən başlayır. Müəllif: Kramer Samuel Noah.(tərcümə edəni P.Kazimi) Bakı. 2009. ISBN: 5-02-016729-0. S: 280.
- Maksakovski V._Dünyanın coğrafi mənzərəsi: I cild: Dünyanın ümumi xüsusiyyətləri. Maksakovski Vladimir Pavloviç. Bakı. 2010. ISBN: 978-5-358-05.
- Kazymi, P. Nasretdinov. R.(2010). *Universalnyj russko-azerbajdganskij slovar*.Moskva,Tolmaç.2010.
- Parviz, K. (2008). Library work in Azerbaijan during the Safavid period. *Baku: Baku University Publishing House*.
- Kazimi, P. F. (2012). Türk xalqlarının kitab və kitabxana mədəniyyəti. Bakı.
- KAZIMİ, P. (2014). Türk Halklarının Kitap ve Kitaphana Medeniyyetinin Menbeşünaslığı (Managrafiya). *Mütercim, Bakı*.
- Xalafov, A. A. (2016). Kazimi PF Türk dünyasi milli kitabxanalari. Bakı. Mutercim.

- Parviz, K. (2008). Library work in Azerbaijan during the Safavid period. *Baku: Baku University Publishing House*.